**“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, № 8, maddələr 1360, 1363, № 7, maddələr 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718; Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 383-VIQD nömrəli və 5 noyabr tarixli 396-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü maddədə “qanunda müəyyən edilmiş” sözləri “Qanunun 17.6-1-ci maddəsində nəzərdə tutulan” sözləri ilə, “qanunlarında” sözü “normativ hüquqi aktlarında” sözləri ilə əvəz olunsun və həmin maddəyə “ödənilməsi” sözündən sonra “qaydası” sözü əlavə edilsin;

1.2. 2-ci maddə üzrə:

1.2.1. 2.0.8-2-ci maddəyə “markasının” sözündən sonra “və məcburi nişanlamanın” sözləri əlavə edilsin;

1.2.2. 2.0.11-ci maddədə “girovun” sözü “ipotekanın” sözü ilə əvəz edilsin;

1.2.3. 2.0.13-cü, 2.0.13-1 – 2.0.13-3-cü və 2.0.14-cü maddələr ləğv edilsin;

1.2.4. 2.0.19-cu maddədə “qeydiyyatı və” sözləri “qeydiyyatı, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı,” sözləri ilə əvəz edilsin;

1.3. 4-cü maddə üzrə:

1.3.1. 4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“4.1. Bu Qanunda nəzərdə tutulan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumu tam məbləğdə dövlət büdcəsinə köçürülür.”;

1.3.2. 4.1-1 – 4.1-6-cı maddələr ləğv edilsin;

1.4. 5.3-cü maddədə “45” rəqəmləri “20” rəqəmləri ilə əvəz edilsin;

1.5. 6.1-ci maddədə “rüsumun” sözü “dövlət rüsumunun” sözləri ilə əvəz edilsin;

1.6. 10.1.1-ci, 10.4.2-ci, 10.9.1-ci və 10.19-cu maddələrdə “20” rəqəmləri “25” rəqəmləri ilə, 10.1.2-ci maddədə “250” rəqəmləri “280” rəqəmləri ilə, 10.1.3-cü maddədə “20” rəqəmləri “35” rəqəmləri ilə, 10.2.1-ci maddədə “25” rəqəmləri “35” rəqəmləri ilə, 10.2.2-ci maddədə “50” rəqəmləri “70” rəqəmləri ilə, 10.3.1-ci, 10.7.1-ci, 10.7.2-ci, 10.8.1-ci, 10.10-cu, 10.11.1-ci, 10.12.2-ci və 10.15-ci maddələrdə “10” rəqəmləri “15” rəqəmləri ilə, 10.3.2-ci maddədə “15” rəqəmləri “20” rəqəmləri ilə, 10.4.1-ci və 10.16-cı maddələrdə “5” rəqəmi “6” rəqəmi ilə, 10.4.3-cü maddədə “30” rəqəmləri “40” rəqəmləri ilə, 10.5.1-ci maddədə “110” rəqəmləri “150” rəqəmləri ilə, 10.5.2-ci maddədə “44” rəqəmləri “50” rəqəmləri ilə, 10.6.1-ci maddədə “55” rəqəmləri “60” rəqəmləri ilə, 10.6.2-ci maddədə “22” rəqəmləri “25” rəqəmləri ilə, 10.7.3-cü maddədə “80” rəqəmləri “100” rəqəmləri ilə, 10.8.2-ci, 10.11.2-ci, 10.13-cü və 10.14-cü maddələrdə “20” rəqəmləri “30” rəqəmləri ilə, 10.9.2-ci maddədə “40” rəqəmləri “50” rəqəmləri ilə, 10.12.1-ci və 10.20-ci maddələrdə “5” rəqəmi “10” rəqəmləri ilə, 10.17-ci maddədə “2” rəqəmi “3” rəqəmi ilə, 10.21-ci və 10.23-cü maddələrdə “5” rəqəmi “7,5” rəqəmləri ilə, 10.24-cü maddədə “100” rəqəmləri “150” rəqəmləri ilə, 10.25-ci maddədə “50” rəqəmləri “75” rəqəmləri ilə əvəz edilsin;

1.7. 11.2-ci maddədə “iki” sözü “bir” sözü ilə əvəz edilsin;

1.8. 12.1-ci maddədə “5” rəqəmi “10” rəqəmləri ilə, 12.2.1-ci və 12.2.2-ci maddələrdə “15” rəqəmləri “20” rəqəmləri ilə, 12.3-cü maddədə “10” rəqəmləri “15” rəqəmləri ilə, 12.4-cü və 12.5-ci maddələrdə “2” rəqəmi “3” rəqəmi ilə əvəz edilsin;

1.9. 14.1.1.1-ci maddədə “10” rəqəmləri “15” rəqəmləri ilə, 14.1.1.2-ci, 14.1.2.1-ci, 14.1-1.1.1-ci və 14.3-2.2-ci maddələrdə “20” rəqəmləri “25” rəqəmləri ilə, 14.1.1.3-cü maddədə “30” rəqəmləri “35” rəqəmləri ilə, 14.1.1.4-cü maddədə “40” rəqəmləri “60” rəqəmləri ilə, 14.1.2.2-ci, 14.1.3.1-ci və 14.1-1.1.3-cü maddələrdə “40” rəqəmləri “55” rəqəmləri ilə, 14.1.2.3-cü maddədə “60” rəqəmləri “75” rəqəmləri ilə, 14.1.2.4-cü maddədə “80” rəqəmləri “120” rəqəmləri ilə, 14.1.3.2-ci maddədə “80” rəqəmləri “115” rəqəmləri ilə, 14.1.3.3-cü maddədə “120” rəqəmləri “155” rəqəmləri ilə, 14.1.3.4-cü maddədə “160” rəqəmləri “210” rəqəmləri ilə, 14.1-1.1.2-ci və 14.1-1.2.1-ci maddələrdə “30” rəqəmləri “40” rəqəmləri ilə, 14.1-1.1.4-cü maddədə “50” rəqəmləri “75” rəqəmləri ilə, 14.1-

1.2.2-ci maddədə “50” rəqəmləri “70” rəqəmləri ilə, 14.1-1.2.3-cü maddədə “70” rəqəmləri “100” rəqəmləri ilə, 14.1-1.2.4-cü maddədə “90” rəqəmləri “135” rəqəmləri ilə, 14.1-1.3.1-ci maddədə “50” rəqəmləri “65” rəqəmləri ilə, 14.1-1.3.2-ci maddədə “90” rəqəmləri “125” rəqəmləri ilə, 14.1-1.3.3-cü maddədə “130” rəqəmləri “165” rəqəmləri ilə, 14.1-1.3.4-cü maddədə “170” rəqəmləri “220” rəqəmləri ilə, 14.2-ci maddədə “11” rəqəmləri “14” rəqəmləri ilə, 14.3.2-ci maddədə “25” rəqəmləri “50” rəqəmləri ilə, 14.3.3-cü və 14.3-1.2-ci maddələrdə “35” rəqəmləri “70” rəqəmləri ilə, 14.3-1.1-ci maddədə “15” rəqəmləri “30” rəqəmləri ilə, 14.3-1.3-cü maddədə “45” rəqəmləri “90” rəqəmləri ilə, 14.3-2.1-ci maddədə “4” rəqəmi “5” rəqəmi ilə, 14.3-2.3-cü maddədə “25” rəqəmləri “30” rəqəmləri ilə, 14.4-cü maddədə “3” rəqəmi “5” rəqəmi ilə, 14.9-cu maddədə “10” rəqəmləri “20” rəqəmləri ilə, 14.11-ci və 14.13-cü maddələrdə “6” rəqəmi “10” rəqəmləri ilə, 14.14-cü maddədə “110” rəqəmləri “200” rəqəmləri ilə, 14.16-cı maddədə “5” rəqəmi “10” rəqəmləri ilə əvəz edilsin;

1.10. 18-ci maddə üzrə:

1.10.1. 18.12.1-ci, 18.33-cü, 18.34.1-ci və 18.34.2-ci maddələrdə “20” rəqəmləri “30” rəqəmləri ilə, 18.12.2-ci maddədə “25” rəqəmləri “40” rəqəmləri ilə, 18.34.3-cü maddədə “60” rəqəmləri “80” rəqəmləri ilə, 18.34.4-cü maddədə “35” rəqəmləri “50” rəqəmləri ilə, 18.34.5-ci maddədə “80” rəqəmləri “100” rəqəmləri ilə, 18.34.6-cı maddədə “45” rəqəmləri “70” rəqəmləri ilə, 18.34-1-ci maddədə “150” rəqəmləri “200” rəqəmləri ilə, 18.34-2-ci maddədə “120” rəqəmləri “160” rəqəmləri ilə, 18.34-3-cü maddədə “40” rəqəmləri “80” rəqəmləri ilə, 18.48-ci maddədə “30” rəqəmləri “35” rəqəmləri ilə, 18.55.1-ci, 18.56.1-ci, 18.59-cu, 18.60.1-ci, 18.60.5-ci, 18.60.6-cı və 18.65.3.1-ci maddələrdə “10” rəqəmləri “20” rəqəmləri ilə, 18.55.2-ci, 18.56.2-ci, 18.60.2-ci, 18.65.3.2-ci, 18.65.4.2-ci, 18.65.5.2-ci və 18.65.7.2-ci maddələrdə “5” rəqəmi “10” rəqəmləri ilə, 18.60.3-cü, 18.60.4-cü, 18.60.10-18.60.16-cı və 18.62.1-ci maddələrdə “25” rəqəmləri “50” rəqəmləri ilə, 18.60.8-ci və 18.60.9-cu maddələrdə “35” rəqəmləri “70” rəqəmləri ilə, 18.61.1-ci maddədə “10” rəqəmləri “20” rəqəmləri və “7” rəqəmi “10” rəqəmləri ilə, 18.61.2-ci maddədə “7” rəqəmi “15” rəqəmləri və “6” rəqəmi “10” rəqəmləri ilə, 18.61.3-cü maddədə isə “9” rəqəmi “20” rəqəmləri və “6” rəqəmi “10” rəqəmləri ilə, 18.65.1.2-ci, 18.65.2.2-ci və 18.65.8-18.65.10-cu maddələrdə “10” rəqəmləri “15” rəqəmləri ilə, 18.65.5.1-ci və 18.65.7.1-ci maddələrdə “25” rəqəmləri “30” rəqəmləri ilə, 18.65.6.2-ci maddədə “22” rəqəmləri “30” rəqəmləri ilə, 18.65.6.3-cü maddədə “11” rəqəmləri “15” rəqəmləri ilə, 18.66-1-ci maddədə isə “20” rəqəmləri “25” rəqəmləri ilə əvəz edilsin;

1.10.2. aşağıdakı məzmunda 18.55-1-ci və 18.55-2-ci maddələr əlavə edilsin:

“18.55-1. Ovçuluq biletinin verilməsinə görə - 25 manat.

18.55-2. Balıqovlama biletinin verilməsinə görə - 25 manat.”;

1.10.3. 18.60.7-ci maddədə “yekcinsliyinin,” sözü “fərqliliyinin, oxşarlığının və” sözləri ilə və “60” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.10.4. 18.62-1.1-ci maddədə “hüquqi şəxslər 20 manat, fiziki şəxslər 5” sözləri, 18.62-1.2-ci maddədə isə “hüquqi şəxslər 20 manat, fiziki şəxslər 10” sözləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.10.5. 18.63.1 – 18.63.3-cü maddələrdə “hüquqi şəxslər 20 manat, fiziki şəxslər 5” sözləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.10.6. 18.64.1-ci və 18.64.2-ci maddələrdə “hüquqi şəxslər 30 manat, fiziki şəxslər 10” sözləri “40” rəqəmləri ilə əvəz edilsin;

1.10.7. 18.65.3-1-ci maddədə “görə dövlət rüsumunun məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.” sözləri “görə:” sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 18.65.3-1.1 – 18.65.3-1.5-ci maddələr əlavə edilsin:

| **Minik avtomobilinin mühərrikinin həcmi** | **Dövlət rüsumunun məbləği** |
|---|---|
| 18.65.3-1.1. 2000 kubsantimetrədək olduqda | mühərrikin həcminin hər kubsantimetrinə görə – 0,05 manat |
| 18.65.3-1.2. 3000 kubsantimetrədək olduqda | 100 manat + mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0,1 manat |
| 18.65.3-1.3. 4000 kubsantimetrədək olduqda | 200 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0,2 manat |
| 18.65.3-1.4. 5000 kubsantimetrədək olduqda | 400 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0,3 manat |
| 18.65.3-1.5. 5000 kubsantimetrdən çox olduqda | 1500 manat |

1.10.8. 18.65.4.1-ci maddədən “milli və beynəlxalq” sözləri çıxarılsın və həmin maddədə “20” rəqəmləri “40” rəqəmləri ilə əvəz edilsin;

1.10.9. 18.65.4.1-1-ci maddədən “milli və beynəlxalq” sözləri çıxarılsın və həmin maddədə “10” rəqəmləri “20” rəqəmləri ilə əvəz edilsin;

1.10.10. aşağıdakı məzmunda 18.65.5.1-1-ci maddə əlavə edilsin:

“18.65.5.1-1. beynəlxalq sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi üçün – 12 manat;”;

1.10.11. 18.65.6.1-ci maddənin cədvəl hissəsi aşağıdakı redaksiyada verilsin:

| **Dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin kombinasiyası** | **Dövlət rüsumunun məbləği** | |
|---|---|---|
| | seriyası müxtəlif hərflərdən ibarət olduqda | seriyası eyni hərflərdən ibarət olduqda |
| 001, 002, 003, 004, 005, 006, 007, 008, 009 | 2000 | 3000 |
| 100, 200, 300, 400, 500, 600, 700, 800, 900 | 1500 | 2000 |
| 111, 222, 333, 444, 555, 666, 777, 888, 999 | 1000 | 1500 |

1.10.12. 18.66-cı maddə aşağıdakı redaksiyada verilsin:

“18.66. baytarlıq şəhadətnaməsinin, sertifikatının, arayışının, pasportunun və baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi üçün:

18.66.1. baytarlıq şəhadətnaməsinin verilməsi (bir sənəd) – 10 manat;

18.66.2. baytarlıq sertifikatının verilməsi (bir sənəd) – 25 manat;

18.66.3. baytarlıq arayışının verilməsi (bir sənəd) – 5 manat;

18.66.4. baytarlıq pasportunun verilməsi (bir sənəd) – 20 manat;

18.66.5. baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi (bir preparat) – 120 manat.”;

1.10.13. aşağıdakı məzmunda 18.66-2-ci və 18.70–18.78-ci maddələr əlavə edilsin:

“18.66-2. Heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq normalarına cavab verməsini təsdiq edən ekspertiza aktının verilməsi və ya ətin, heyvan və quş cəmdəklərinin və digər məhsulların üzərinə nişanın qoyulması (1 müayinə üçün):

18.66-2.1. qaramal və ya digər iri heyvanların əti (1 cəmdək) – 5 manat;

18.66-2.2. qoyun və donuz əti (1 cəmdək), donuz piyi (1 partiya) – 4 manat;

18.66-2.3. diri quş və quş əti (1 baş və ya 1 cəmdək) – 0,02 manat;

18.66-2.4. hazır ət məhsulları (hər biri 1 partiya) – 5 manat;

18.66-2.5. içalat, dil, baş, dırnaq (1 partiya) – 3 manat;

18.66-2.6. balıq (diri, dondurulmuş və ya hisə verilmiş) – 1 partiya – 3,50 manat;

18.66-2.7. yumurta (topdansatış – 1 partiya (1000 ədəddən artıq) – 2,50 manat;

18.66-2.8. yumurta (pərakəndə satış – 1 partiya (1000 ədədə qədər) – 1,30 manat;

18.66-2.9. süd və süd məhsulları, mum, vərəmum (hər biri 1 partiya) – 2,60 manat;

18.66-2.10. arı balı (1 partiya) – 4,50 manat.”;

”18.70. Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi - 50 manat.

18.71. Dövlət ekoloji ekspertizasına aid edilən obyektlər barədə ekspert rəyinin verilməsi – 50 manat.

18.72. Yerin təki sahəsində faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikmək və istismar etmək məqsədilə dağ-mədən ayırması statusunun verilməsi – 50 manat.

18.73. Geoloji öyrənilmə məqsədilə ayrılan yerin təki sahələrinə geoloji ayırma statusunun verilməsi – 50 manat.

18.74. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərarın qəbul edilməsi – 100 manat.

18.75. İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiyası haqqında qərarın verilməsi – 2000 manat.

18.76. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktının verilməsi – 50 manat.

18.77. İnvestisiya təşviqi sənədinin verilməsi – 70 manat.

18.78. Mədəni sərvətlərin ixracına mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsi – 20 manat.”;

1.11. aşağıdakı məzmunda 19.5-ci maddə əlavə edilsin:

“19.5. Bu Qanunun 18.65.3-1-ci maddəsi ilə müəyyən olunan dövlət rüsumunun məbləğlərinə minik avtomobillərinin istehsal tarixindən asılı olaraq aşağıdakı əmsallar tətbiq edilir:

19.5.1. istehsal tarixi 4 ilədək olan minik avtomobillərinə – 1,0;

19.5.2. istehsal tarixi 4 ildən 10 ilədək olan minik avtomobillərinə – 0,8;

19.5.3. istehsal tarixi 10 ildən çox olan minik avtomobillərinə – 0,3.” ;

1.12. 19-1-ci maddədə “50” rəqəmləri “65” rəqəmləri ilə əvəz edilsin;

1.13. 20.1-ci maddədə “220” rəqəmləri “300” rəqəmləri ilə, 20.2-ci maddədə “3” rəqəmi “5” rəqəmi ilə, 20.3-cü maddədə “11” rəqəmləri “15” rəqəmləri ilə, 20.5-ci maddədə “2” rəqəmi “3” rəqəmi ilə və 20.6-cı maddədə “1” rəqəmi “2” rəqəmi ilə əvəz edilsin;

1.14. 20-3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 20-3. Aksiz markasının və məcburi nişanlamanın verilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 20-3.1. Aksiz markasının verilməsinə görə | 0,07 |
| 20-3.2. Məcburi nişanlamanın verilməsinə görə: | |
| 20-3.2.1. aksizli mallara məcburi nişanlamanın verilməsinə görə | 0,07 |
| 20-3.2.2. məcburi nişanlanmalı olan digər mallara məcburi nişanlanmanın verilməsinə görə | 0,03 |

1.15. aşağıdakı məzmunda 20-4-cü maddə əlavə edilsin:

**“Maddə 20-4. Aksiz markasının və məcburi nişanlamanın verilməsinə görə dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri**

Həm aksiz markası, həm də məcburi nişanlama tətbiq edilməli olan mallara yalnız bu Qanunun 20-3.2.1-ci maddəsində nəzərdə tutulan dövlət rüsumu tutulur.”;

1.16. 21.1.1-ci maddədə “220” rəqəmləri “300” rəqəmləri ilə, 21.1.2-ci maddədə “440” rəqəmləri “600” rəqəmləri ilə, 21.1.3-cü maddədə “880” rəqəmləri “1200” rəqəmləri ilə, 21.2-ci maddədə “1100” rəqəmləri “1500” rəqəmləri ilə, 21.3-cü maddədə “3” rəqəmi “5” rəqəmi ilə, 21.4-cü maddədə “1” rəqəmi “2” rəqəmi ilə, 21.5-ci maddədə “5” rəqəmi “10” rəqəmləri ilə və 21.6-cı maddədə “2” rəqəmi “4” rəqəmi ilə əvəz edilsin;

1.17. 23-1-ci və 23-2-ci maddələr ləğv edilsin;

1.18. 26-cı maddə üzrə:

1.18.1. adında “girovun” sözü “ipotekanın” sözü ilə əvəz edilsin;

1.18.2. 26.1.1-ci maddəyə “hüquqlarının” sözündən sonra “(o cümlədən vərəsəlik nəticəsində əldə edilmiş hüquqların)” sözləri əlavə edilsin və həmin maddədə “30” rəqəmləri “50” rəqəmləri ilə əvəz edilsin;

1.18.3. 26.1.2-ci maddədə “50” rəqəmləri “75” rəqəmləri ilə, 26.5-ci maddədə “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.18.4. 26.2-ci maddədə “Vərəsəlik nəticəsində əldə edilmiş hüquqların, bölünmə” sözləri “Bölünmə” sözü ilə, “20” rəqəmləri “30” rəqəmləri əvəz olunsun, həmin maddədən “girov” sözü çıxarılsın və həmin maddəyə “aparılması” sözündən sonra “ilə bağlı çıxarışın verilməsi” sözləri əlavə edilsin;

1.18.5. 26.3-cü maddədə “çatdırılmamış daşınmaz əmlak üzərində hüquqların qabaqcadan dövlət qeydiyyatı” sözləri “çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılması” sözləri ilə və “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.18.6. 26.4-cü maddədən “, girovun əlavə qeydiyyatına” sözləri və “daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın dublikatının verilməsi” sözləri çıxarılsın və həmin maddədə “10” rəqəmləri “15” rəqəmləri ilə əvəz edilsin;

1.19. 27-1.1-ci və 27-1.2-ci maddələrdə “2” rəqəmi “3” rəqəmi ilə, 27-1.3-cü maddədə “20 qəpik” sözləri “0,5 manat” sözləri ilə, 27-1.4-cü maddədə “6” rəqəmi “10” rəqəmləri ilə, 27-1.5.1-ci maddədə “4” rəqəmi “10” rəqəmləri ilə və 27-1.5.2-ci maddədə “2” rəqəmi “5” rəqəmi ilə əvəz edilsin;

1.20. 28.1-28.3-cü, 28.7-28.10-cu, 28.21-ci və 28.22-ci maddələrdə “50” rəqəmləri “65” rəqəmləri ilə, 28.4-cü maddədə “40” rəqəmləri “60” rəqəmləri ilə, 28.5-ci maddədə “50” rəqəmləri “75” rəqəmləri ilə, 28.6-cı və 28.13-cü maddələrdə “25” rəqəmləri “40” rəqəmləri ilə, 28.11-ci maddədə “30” rəqəmləri “40” rəqəmləri ilə, 28.12-ci, 28.15-ci və 28.19-cu maddələrdə “10” rəqəmləri “15” rəqəmləri ilə, 28.16-cı, 28.17.1-28.17.3-cü, 28.18.1-28.18.3-cü və 28.18.5-ci maddələrdə “5” rəqəmi “10” rəqəmləri ilə, 28.18.4-cü maddədə “10” rəqəmləri “20” rəqəmləri ilə və 28.20-ci maddədə “15” rəqəmləri “25” rəqəmləri ilə əvəz edilsin;

1.21. 29.1 – 29.3-cü maddələrdə “100” rəqəmləri “150” rəqəmləri ilə, 29.4–29.7-ci maddələrdə “50” rəqəmləri “75” rəqəmləri ilə, 29.8-29.11-ci və 29.13-cü maddələrdə “30” rəqəmləri “45” rəqəmləri ilə və 29.12-ci maddədə “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.22. 30-cu maddə üzrə:

1.22.1. 30.1-ci maddədə “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.22.2. 30.3-cü maddə ləğv edilsin;

1.22.3. 30.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 30.4. Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi barədə sertifikatın verilməsi | 30 manat |

1.23. 30-1-ci maddədə “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.24. 31-ci maddə üzrə:

1.24.1. 31.1.1-ci, 31.1.2-ci, 31.1.4-cü və 31.1.5-ci maddələr ləğv edilsin;

1.24.2. 31.2.1-ci maddədə “60” rəqəmləri “90” rəqəmləri ilə, 31.1.3-cü maddədə “50” rəqəmləri “75” rəqəmləri ilə, 31.2.3-cü maddədə “10” rəqəmləri “15” rəqəmləri ilə və 31.2.2-ci maddədə “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.24.3. aşağıdakı məzmunda 31.1.6-cı maddə əlavə edilsin:

| | |
|---|---|
| 31.1.6. tikinti obyektinin istismarına icazənin verilməsi | 60 manat |

1.25. 33-cü maddə üzrə:

1.25.1. adında “qeydiyyatı və” sözləri “, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatına,” sözləri ilə əvəz edilsin;

1.25.2. 33.1-ci maddədə “100” rəqəmləri “150” rəqəmləri ilə və 33.2-ci maddədə “15” rəqəmləri “25” rəqəmləri ilə əvəz edilsin;

1.25.3. aşağıdakı məzmunda 33.1-1-ci və 33.1-2-ci maddələr əlavə edilsin:

“33.1-1. dərman vasitələrinin və maddələrinin yenidən dövlət qeydiyyatı – 100 manat;

33.1-2. dərman vasitələrinin və maddələrinin qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı – 50 manat;”;

1.26. 33-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 33-1. Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi üçün tutulan dövlət rüsumunun dərəcələri**

| **Dövlət rüsumu tutulmalı olan hərəkətlər** | **Dövlət rüsumunun məbləği** |
|---|---|
| 33-1.1. Fərdi layihələr əsasında hazırlanmış reklam qurğuları (hava şarları, dirijabllar, aerostatlar və s.) – 1 kvadratmetr üçün | 100 manat |
| 33-1.2. Elektron (rəqəmsal) daşıyıcılar (monitor, ekran, tablo və s.) : | |
| 33-1.2.1. 20 kvadratmetrədək olduqda | hər kvadratmetrinə görə 50 manat |
| 33-1.2.2. 50 kvadratmetrədək olduqda | 1000 manat + 21-50 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 15 manat |
| 33-1.2.3. 100 kvadratmetrədək olduqda | 1450 manat + 51-100 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 10 manat |
| 33-1.2.4. 100 kvadratmetrdən artıq olduqda | 1950 manat + 100 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə 5 manat |
| 33-1.3. Təsvirin dinamik dəyişdiyi daşıyıcılar (1 kvadratmetr üçün): | |
| 33-1.3.1. roller | 40 manat |
| 33-1.3.2. prizmatron və s. | 17 manat |

| | |
|---|---|
| 33-1.4. Hərəkətsiz daşıyıcılar (1 kvadratmetr üçün): | |
| 33-1.4.1. transparant, körpüüstü reklam | 20 manat |
| 33-1.4.2. ayrıca dayaqlı lövhə və qutu (o cümlədən ictimai nəqliyyat dayanacaqlarına inteqrasiya olunmuşlar), tumba, ödəniş terminalları və avtomatlaşdırılmış satış köşkləri (vending) | 17 manat |
| 33-1.4.3. bilbord, meqabord | 15 manat |
| 33-1.4.4. kronşteyn panel, divar panosu (brandmauer), binaların damında hərflər və loqotiplər şəklində yerləşdirilən reklam qurğuları, çətir, tent, bayraq, afişa stendi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulmuş digər reklam daşıyıcıları (bu Qanunun 33-1.4.1–33-1.4.3-cü maddələrində nəzərdə tutulmuş reklam daşıyıcıları istisna olmaqla) | 10 manat |

1.27. 33-2-ci maddə üzrə:

1.27.1. 33-2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"33-2.2. Bu Qanunun 33-1-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğləri 1 il müddətinə açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsinə görə müəyyən edilir.";

1.27.2. aşağıdakı məzmunda 33-2.3 – 33-2.7-ci maddələr əlavə edilsin:

"33-2.3. Reklam daşıyıcısının quraşdırıldığı zonadan asılı olaraq bu Qanunun 33-1-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğlərinə aşağıdakı əmsallar tətbiq edilir:

33-2.3.1. Bakı şəhəri üzrə - 1;

33-2.3.2. Gəncə, Sumqayıt və Xırdalan şəhərləri üzrə - 0,8;

33-2.3.3. Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Mingəçevir, Şirvan, Lənkəran, Yevlax, Şəki, Qəbələ, Quba, Naftalan şəhərləri və Xaçmaz rayonunun Nabran qəsəbəsi üzrə - 0,7;

33-2.3.4. digər şəhər (rayon), qəsəbə və kənd üzrə - 0,5.

33-2.4. Həcmli fəza konstruksiyaları və mürəkkəb formalı qurğular üçün reklam sahəsi kimi reklamın konturu ilə əhatə olunmuş sahə qəbul edilir.

33-2.5. Birbaşa aid olduğu xidmət, ticarət və ya digər obyektlərin giriş hissəsində, fasadında (divarında, hasarında) yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran, ölçüsü 1 kvadratmetrdən artıq olan lövhəyə (yazıya) görə dövlət rüsumu onun ümumi ölçüsünə uyğun ödənilir.

33-2.6. Müvəqqəti xarakter daşıyan reklama verilmiş icazənin müddəti bir ildən az olduqda, dövlət rüsumunun məbləği on ikiyə bölünərək icazə istənilən ayların sayına vurulur və alınan nəticəyə bu Qanunun 33-2.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq əmsal tətbiq olunur.

33-2.7. Açıq məkanda reklam yerləşdirilməsinə verilən icazə müddətinin uzadılması, həmçinin istehsalı (satışı) lisenziyalaşdırılan və ya sertifikatlaşdırılan

yeni əmtəələrin reklamının yerləşdirilməsi hallarında mövcud icazənin yenidən rəsmiləşdirilməsi üçün dövlət rüsumu ödənilir.”;

1.28. 33-5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 33-5. Satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və əlavə dəyər vergisi tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna olmaqla, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətləri**

33-5.1. Satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və əlavə dəyər vergisi tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna olmaqla, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına aşağıdakı dövlət rüsumu dərəcələri tətbiq edilir:

33-5.1.1. Bazar qiyməti 100 ABŞ dollarından çox olmayan və foto, videoçəkiliş və internetə çıxış funksiyaları olmayan mobil cihazlar – 20 manat.

33-5.1.2. Bu Qanunun 33-5.1.1-ci maddəsində nəzərdə tutulan cihazlar istisna olmaqla, digər mobil cihazlara görə dövlət rüsumunun dərəcələri:

33-5.1.2.1. bazar qiyməti 100 ABŞ dollarına qədər olduqda – 30 manat;

33-5.1.2.2. bazar qiyməti 101 ABŞ dollarından 200 ABŞ dollarına qədər olduqda – 50 manat;

33-5.1.2.3. bazar qiyməti 201 ABŞ dollarından 400 ABŞ dollarına qədər olduqda – 60 manat;

33-5.1.2.4. bazar qiyməti 401 ABŞ dollarından 700 ABŞ dollarına qədər olduqda – 70 manat;

33-5.1.2.5. bazar qiyməti 701 ABŞ dollarından 1000 ABŞ dollarına qədər olduqda – 100 manat;

33-5.1.2.6. bazar qiyməti 1001 ABŞ dollarından yuxarı olduqda – 150 manat.

33-5.1.3. Qeydiyyat üçün müraciət olunan tarixə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında marka və modeli, habelə bazar qiyməti yerləşdirilməyən mobil cihazlar – 20 manat.

33-5.2. Bu Qanunun 33-5.1-ci maddəsində nəzərdə tutulan bazar qiyməti mobil cihazların qeydiyyatına görə dövlət rüsumunun ödənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yeni (istifadə olunmamış) mobil cihazların (yararlılıq vəziyyətindən asılı olmayaraq) marka və modelinə uyğun müəyyən edilən, onun beynəlxalq elektron informasiya sistemində nəzərdə tutulan dəyəridir.

33-5.3. Bu Qanunun 33-5.1-ci maddəsində nəzərdə tutulan bazar qiymətləri və həmin qiymətlər müəyyən edilərkən istinad olunan onlayn beynəlxalq elektron informasiya sistemi barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında yerləşdirilir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 dekabr 2021-ci il